# Sentyabrın 15-də təhsil müəssisələrində tədris bərpa edilir

## Əvvəlcə ibtidai siniflər, sonra 5-9-cu siniflərdə oxuyanlar məktəbə gedəcək, 10-11-ci sinif şagirdləri isə online təhsilə cəlb olunacaq

**"Təhsil alan və təhsil verənlərin yaş xüsusiyyətləri tədrisin təşkilində nəzərə alınmalıdır". Bunu avqustun 27-də COVİD-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı keçirilən mətbuat konfransında Təhsil naziri Emin Əmrullayev bildirib. O deyib ki, Azərbaycanda tədris ili sentyabrın 15-də başlayır: "Təhsil müəssisələrinin açılması nəqliyyatda, iş yerlərində, ailələrində virusun yayılmasına təsir edən amil kimi nəzərə almalıyıq. Amma biz onu da nəzərə almalıyıq ki, təhsil xalqın gələcəyidir və nə olursa olsun, davam etdirilməlidir".**

Nazir deyib ki, ən səmərəli olan təkliflər əsas götürülməlidir: "Ümumi məntiq ondan ibarətdir ki, təhsil müəssisələrinin fəaliyyəti bərpa edilməlidir. Differensial yanaşma əsas götürülməlidir. Yerli şəraitə və situasiyaya uyğun qərarlar verilməlidir".

Nazirin sözlərinə görə sentyabrın 15-dən həftədə 2-3 dəfə olmaqla, ibtidai siniflərdə tədrisin başlamasını təklif edilir.

I sinif şagirdlərinin həftədə 3, digər siniflər şagirdlərinin isə aktiv xəstələrin sayı çox olarsa, 2 dəfə gəlməsi təklif edilib: "Təklif qəbul olunsa, ibtidai siniflərdə təhsil alan 650 min uşaq dərsə gedəcək. Bu qrupun 257 min nəfəri Bakı, Sumqayıt və Abşeron ərazisinə düşür. Bu ərazilərdə epidemioloji vəziyyət gərgindir".

Sentyabrın 15-dən orta məktəblərin 5-9-cu siniflərində dərslər onlayn qaydada başlayacaq. Mart ayına qədər teledərslərin də davam etdirilməsi nəzərdə tutulub: "1 oktyabr tarixindən 5-9-cu siniflərin məktəbə əyani şəkildə dərsə gəlməsini planlaşdırırıq. Epidemioloji vəziyyət imkan verərsə, 1 milyon 300 min şagirdi uyğunlaşdırılmış qaydada tədrisə cəlb etməyi nəzərdə tuturuq".

Orta məktəblərin 10 və 11-ci sinif şagirdlərinin məktəblərə 15 oktyabr tarixindən qayıtması planlaşdırılır. Sentyabrın 15-dən isə qeyd olunan siniflər üçün tədris onlayn olacaq.

Oktyabrın 1-dən həftədə 2 dəfə olmaqla, məktəbəqədər qruplarda tədrisin başlanması planlaşdırılır. "Noyabrın 2-nə qədər bu rejimdə işləyə bilsək, bu, müəyyən mənada uğur hesab edilə bilər" - deyə nazir bildirib.



Sentyabrın 15-dən ali məktəblər distant qaydada fəaliyyətə başlayacaq. Oktyabr ayından 1-ci kursa qəbul olunmuş tələbələrin ənənəvi qaydada müəyyən universitet və ali məktəbləri ilə tanışlıq üçün gəlməsi planlaşdırılır: "15 oktyabr tarixindən isə bu ali məktəblərdə bəzi ixtisaslar üzrə, məsələn, tibb, mühəndislik və s. əyani təhsil üzrə tədris başlayacaq. 2 noyabrdan bu məsələyə yenidən baxıla bilər".

Nazir bildirib ki, bağçalar və məktəbəqədər təhsil işləyən anaların işinə təsir edən amildir. Onun sözlərinə görə, təklif odur ki, uşaq bağçalarının fəaliyyəti sentyabrın 15-dən başlayaraq bərpa edilsin: "Uşaq bağçaları ən mürəkkəb təhsil pilləsidir, çünki orada təhsillə əlaqədar qayğıdan da danışırıq. Qayğını onlayn və distant şəkildə göstərmək isə mümkünsüzdür. Bu, o cümlədən məktəbəqədər təhsil sahəsində işləyən şəxslərin iş şəraitinə də təsir göstərən amildir. Sentyabrın 15-dən başlayaraq epidemioloji vəziyyət imkan versə, bağçaların fəaliyyətinə start verilməsi təklif edilib. Vəziyyət pisləşməsə, uşaq bağçalarının ilk növbədə virusun yayılması daha az olan yerlərdən başlamaqla mövcud vəziyyət nəzərə alınmaqla və qaydalara əməl edilməklə oktyabrın 1-nə qədər tədricən açılmasını təklif edirik".

Təhsil naziri qeyd edib ki, məktəblərdə şagirdlərin hərarətlərinin gündəlik yoxlanması istiqamətində iş aparılacaq: "Virusun yayılmasının qarşısını almaq üçün xəstəliyin vaxtında aşkarlanması, aşkarlanmış halların təcrid edilməsi, təcrid olunmuş və təmasda olmuş insanların siyahısının müəyyən edilməsi vacibdir. Ona görə belə hal müəyyən edilərsə, valideynlərə, məktəb ictimaiyyətinə çatdırılmasında maraqlıyıq. Hansısa uşağın, valideynin qızdırması varsa, həmin uşağın məktəbə gəlməməsinin tərəfdarıyıq. Bununla bağlı xüsusi qaydalar da hazırlanır".

Eyni zamanda, valideynlərin uşaqlarını məktəbə göndərib-gönlərməmək hüququ da tanınacaq. E. Əmrullayev deyib ki, valideynlər məktəbləri məlumatlandırmaqla övladlarının onlayn, yaxud qarışıq üsulla - həftədə məktəbə 2-3 dəfə gəlməklə, digər dərsləri virtual qaydada keçməsini təmin edə bilər: "Valideynlərin bu seçimini asanlaşdırmaq üçün xüsusən Bakı, Sumqayıt, Abşeron və Gəncədə mütəmadi məlumatlandırmanı təşkil etməyə çalışacağıq".

Bu və ya digər təhsil müəssisəsində kütləvi yoluxma varsa, uşaqlar məktəbdən valideynlərini, yaşlı insanları yoluxdurursa, həmin məktəbdə distant, onlayn təhsilə keçilməsi təklif edilir.

Nazir tədris kursları ilə bağlı qərarların verilməsinin də gözlənildiyini bildirib. Bu zaman sıxlıq və gigiyena məsələləri nəzərə alınacaq. Məktəblər açılanda "Məktəblinin dostu" layihəsinin iştirakçıları uşaqların hərarətinin ölçülməsinə, sosial məsafənin qorunmasına nəzarət edəcəklər. Hansısa sinifdə, yaxud məktəbdə kütləvi yoluxma olsa, o sinif, yaxud məktəb bağlanacaq.

Təhsil nazirinin müşaviri Rüstəm Ağayev bildirib ki, maska balaca uşaqda da virusun mənbəyinə çevrilə bilər.

Onun sözlərinə görə, birdəfəlik maskalar çıxarıldıqdan sonra istifadə edilməməlidir: "Biz valideynlərə desək ki, uşaqlar kütləvi maska taxsın, fərqli durum da yarana bilər. 12 yaşdan aşağı olan uşaqların məktəblərdə maska taxması tövsiyə xarakterlidir".

Nazirin müşaviri deyib ki, uşaqlardan çox risk qrupuna müəllimlər və valideynlər daxildir: "Müəllimlərin 38 faizinin yaşı 50-dən yuxarıdır. Əsas valideyn və müəllimlər maska ilə qorunmalıdır".